1984-cü ildə hüquqşünas kimi fəaliyyətə başlamış cənab Hoqan, 1988-ci ildən etibarən müstəsna olaraq keçmiş SSRİ və Şərqi Avropa ölkələri üzrə korporativ hüquq, kommersiya hüququ və təbii ehtiyatlara aid olan qanunvericilik üzrə çalışmışdır. Cənab Hoqanın fəaliyyətində xüsusi yeri Azərbaycan, Qazaxıstan, Rusiya Federasiyası, Ukrayna və MDB-nin digər ölkələrində neft-qaz, dağ-mədən işləri və təbii ehtiyatların işlənməsi ilə əlaqədar layihələrin strukturunun işlənib hazırlanması, müvafiq danışıqların aparılması və bu kimi layihələrin icrası ilə əlaqədar hüquq üzrə məsləhətlərin təqdim olunması tutur. Onun təcrübəsi sırasına müxtəlif hasilatın pay bölgüsü sazişləri, xidmət müqavilələri, təbii ehtiyatlar yataqlarının ayrılması haqqında müqavilələr, neft yataqları üzrə xidmət və qazıma işləri müqavilələri, lisenziyalaşdırma, boru kəmərlərinin çəkilməsi və istismarı, habelə dəniz ilə daşımaçılıq, o cümlədən maye təbii qazın daşınması və satışı, məsələləri ilə əlaqədar hüquq üzrə məsləhətlərin verilməsi daxildir.
O, həmçinin, aparıcı xarici şirkətlərə investisiya qoyuluşu strategiyası, habelə birgə müəssisələrin yaradılması və birgə iş birliyi üçün strukturlarının işlənib hazırlanması, layihələrin maliyyələşdirilməsi, infrastruktur layihələrinin icrası, özəlləşdirmə, lisenziyalaşdırma, və aidiyyatı vergi, gömrük, ekologiya, korporativ idarəetmə məsələləri, və digər müvafiq məqamlar üzrə məsləhətlər vermişdir. Deyilənlərə əlavə olaraq, o, beynəlxalq maliyyə təşkilatları, inkişaf bankları, və investisiya fondlarına investisiyalar və təminatlı kreditləşdirmə məsələləri ilə əlaqədar tez-tez hüquq üzrə məsləhətlər təqdim edir.
Cənab Hoqan təhsilini Miçiqan Universiteti (Rusiya və Şərqi Avropaşunaslıq fakültəsi, fərqlənmə ilə bakalavr dərəcəsi, 1979-cu il), Moskvada yerləşən Puşkin adına İnstitut (1980 1981) və Texas Universitetində (fərqlənmə ilə hüquq üzrə magistr dərəcəsi, 1984-cü il) almışdır. 1984-cü ildə o, ABŞ-ın Kolumbiya Dairəsinin Vəkillər Kollegiyasına qəbul edilmiş, 1991-ci ildə Fransada hüquqşünas kimi fəaliyyət göstərməyə icazə almış, 1992-ci ildə isə Paris şəhəri Vəkillər Kollegiyasına üzv qəbul edilmişdir. Cənab Hoqan ingilis, fransız və rus dillərini sərbəst bilir.
O, Azərbaycan, Qazaxıstan, Rusiya və Ukraynada xarici investisiyalar və energetika sektorları üzrə bir çox məqalələrin müəllifidir və bir sıra beynəlxalq konfranslarda məruzələr ilə çıxış etmişdir. Cənab Hoqan Beynəlxalq Vergi və İnvestisiya Mərkəzinin (BVİM), habelə Fransa-Azərbaycan Ticarət Palatasının İdarə Heyətinin Üzvüdür. Chambers Global, Legal 500 (Hall of Fame), "Who's Who Legal – Energy", "Who's Who Legal – CİS" və həmçinin "Best Lawyers-Azerbaijan" nəşrləri cənab Hoqanı tövsiyə edilən hüquqşünasların sırasında qeyd etmişdir.dilən hüquqşünasların sırasında qeyd etmişdir.



## SÜLEYMAN QASIMOV

### SOCAR-IN İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ VİTSE-PREZİDENTİ

Qasımov Süleyman Mehrəli oğlu 1961-ci ildə Gürcüstan Respublikası, Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdur. 1982-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (Azərbaycan Dövlət İqtisad Universiteti), 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasını bitirmişdir. 1982-1991-ci illər ərzində neft-qaz sənayesində müxtəlif vəzifələrdə (mühasib, iqdisadçı, baş mühasibin müavini, baş mühasib) çalışmışdır. 1991-2003-cü illərdə "Azərineft" Neft və Qaz çıxarma Baş İdarəsinin "Xəzər dəniz neftqaz", "Dənizdə neft və qaz çıxarma" İstehsalat Birliklərinin baş mühasibi vəzifəsində işləmişdir. 2004-2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Baş Ofisində İqtisadiyyat və Uçot İdarəsinin şöbə rəisi, İdarə rəisinin müavini, İdarə rəisi olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iqdisadi məsələlər üzrə vitse-prezidentidir. 2006-cı ildə "Tərəqqi" medalı, 2011-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir. İqtisad elmləri doktorudur, 1 elmi əsər, 15-dən çox elmi məqalə müəllifidir.
Yeni Azərbaycan Partiyasının üzvüdür.



## BƏHRAM HÜSEYNOV

### SOCAR-IN GEOLOGİYA VƏ GEOFİZİKA MƏSƏLƏLƏRİ ÜZRƏ VİTSE-PREZİDENTİ

Bəhram Bəhlul oğlu Hüseynov 1983-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunu Faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı ixtisası üzrə bitirmişdir və həmin ildən Qum adası dənizdə qazma işləri idarəsində geoloq və geoloji şöbənin böyük geoloqu vəzifələrində çalışmışdır. 1988-ci ilin iyulundan "Xəzərdənizneftqaz" İB İstehsalat Birliyində baş ofisində Neft və qaz yataqlarının kəşfiyyatı üzrə geoloji şöbəyə böyük geoloq vəzifəsinə keçirilmiş, 1992-ci ildən geoloji şöbənin rəis müavini vəzifəsində çalışmışdır. 1993-1994-cü illərdə ABŞ-ın Amoko şirkətinin Talsa şəhərində olan elmi-tədqiqat mərkəzində ezamiyyətdə olmuş və birgə layihədə iştirak etmişdir. Ezamiyyətdən qayıtdıqdan sonra Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyində əmək fəaliyyətini işini davam etdirmişdir. 1995-ci ilin may ayından Azərbaycan Beynəlxalq Əməliyyat Sirkətində vitse-prezidentin müşaviri vəzifəsində, 1997-ci ilin iyun ayından geoloji şöbənin böyük geologu vəzifəsində çalışmışdır. 1998-ci ilin iyunundan BP şirkətinin operatoru olduğu "Şahdəniz" layihəsində geoloji kəşfiyyat qrupunun rəhbəri vəzifəsinə qəbul edilmişdir. 2000-ci ilin martından 2002-ci ilin dekab ayına qədər BP-nin Böyük Britaniyanıin London ofisində ezamiyyətdə olmuş və "AÇG" yataqlarının II və III fazalarının işlənməsinin geologiya, geofizika və lay mühəndisliyi layihə qrupunun rəhbəri vəzifəsində çalışmışdır. 2002-ci ilin dekabrından 2011-ci ilin yanvarına qədər Bakıda BP-nin operatorluq etdiyi "AÇG" yatağının işlənməsi layihəsində geoloji qrupun rəhbəri, kəşfiyyat bölümündə yeni quyu planlaşdırılması (New well planning) qrupunun rəhbəri, "Azəri" yatağında hasilatın idarə olunması (Base management) qrupunun rəhbəri, "Azəri" yatağında yeni quyuların layihələndirilməsi və yerinə yetirilməsi (New well delivery) qrupunun rəhbəri vəzifələrində çalışmışdır. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür. 2011-ci ilin yanvarından Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidentinin müavini vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 aprel 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Geologiya və geofizika məsələləri üzrə vitse-prezidenti təyin edilmişdir. İngilis və rus dillərini bilir. Yeni Azərbaycan Partiyasının üzvüdür



## QREQORİ RAYLİ

### BP AZƏRBAYCAN ŞİRKƏTİNİN GEOLOJİ KƏŞFİYYAT ÜZRƏ VİTSE PREZİDENTİ

Elmlər Doktoru Qreqori Rayli BP Azərbaycan şirkətində Geoloji Kəşfiyyat üzrə Vitse Prezident vəzifəsində çalışır. Doktor Rayli Cənubi İllinoys Universitetinin Geologiya və Zoologiya fakültəsini bitirib və Geologiya elmi üzrə magistr dərəcəsinə yiyələnib. Sonra isə Luiziana Dövlət Universitetində Geologiya elmi üzrə doktorluq dərəcəsi qazanıb.
Elmlər Doktoru Qriqori Rayli BP şirkətində öz karyerasına 1991-ci ildə Afrika və Orta Şərqdə işləməklə başlayıb. 1994-cü ildən bəri Doktor Rayli Xəzər regionunda Azərbaycan və Qazaxıstanda kəşfiyyatçı-geoloq, geoloq ekspert və geoloji kəşfiyyat üzrə menecer vəzifəsində çalışıb.



## YAŞAR LƏTİFOV

### SOCAR-IN YATAQLARIN İŞLƏNMƏSİ ÜZRƏ VİTSE-PREZİDENTİ

Yaşar Aydın oğlu Lətifov 16 iyun 1965-ci il tarixində Bakı şəhərində anadan olmuşdur. 1987-ci ildə İ.M. Qubkin adına Moskva Neft və Qaz İnstitutunu "Neft və qaz yataqlarının işlənməsi texnologiyası və kompleks mexanikləşdirilməsi" ixtisası üzrə bitirərək "Azneft"in 2 saylı Binəqədi Neft-Qaz Çıxarma İdarəsində operator kimi əmək fəaliyyətinə başlamış, daha sonra usta vəzifəsinə keçirilmişdir. 1989-cu ildən etibarən Vyetnam, Rusiya, Böyük Britaniya və Türkiyədə beynəlxalq səviyyəli uzunmüddətli layihələrdə fəaliyyət göstərmişdir. 2012-ci ildən SOCAR prezidentinin müşaviri və "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" layihələrinin aktivləri üzrə SOCAR-ın maraqlarının idarə edilməsi ilə məşğul olan SOCAR Upstream Management İnternational MMC-nin İcraçı Direktoru vəzifəsində çalışmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 aprel 2016-cı il Sərəncamı ilə SOCAR-ın yataqların işlənməsi üzrə vitse-prezidenti vəzifəsinə təyin olunmuşdur.



## RAMİN ƏLİ OĞLU İSAYEV

### "SOCAR-AQŞ" MMC-NİN BAŞ DİREKTORU

İlk təhsilini Ramin İsayev Bakı Dövlət Universitetinin fizika fakultəsində almışdır. Daha sonra Harvard Universiteti və Massaçusets Texnoloji İnstitutunda oxumuşdur. Ramin İsayevin beynəlxalq neft və qaz sənayyəsində 20 ildən artıq iş təcrübəsi vardır. O, BP, Statoil, KCA DEUTAG və SOCAR kimi şirkətlərdə işləmişdir. Ramin İsayev Azərbaycanın müxtəlif universitetlərində dərs demişdir və iqtisadiyyat, neft və qaz sahəsində bir neçə məqalə və kitab dərc etmişdir. Hal-hazırda, Ramin İsayev neft və qaz quyularının inteqrə olunmuş qazma və xidməti göstərən "SOCAR-AQŞ"MMC-nin Baş Direktorudur.



## XALİK MƏMMƏDOV

### SOCAR-IN KADR, REJİM VƏ İNFORMASİYA TEXNOLOGİYALARI ÜZRƏ VİTSE-PREZİDENTİ

Məmmədov Xalik Rəfi oğlu 1958-ci ildə Astara rayonunda anadan olmuşdur. 1984-cü ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu (Azərbaycan Dövlət Neft Akademiyası) mühəndis-elektrik ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə 1976-cı ildə Yeni Bakı Neftayırma Zavodunda başlamışdır. 1985-1991-ci illər ərzində Yeni Bakı Neftayırma Zavodunun Həmkarlar İttifaqı Komitəsinin sədri, 1991-1992 illərdə Bakı şəhəri Nizami rayonu XDS İcraiyyə Komitəsinin sədr müavini, Bakı şəhəri Nizami rayonu İcra Hakimiyyəti başçısının 1-ci müavini, Yeni Bakı Neftayırma Zavodu nəzdində "Azinteroyl" Müştərək Müəssisəsinin texniki direktoru, 1992-1994-cü illər ərzində Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının Təşkilat şöbəsinin baş mütəxəssisi, 1994-2005-ci illərdə "Azərneftyanacaq" İstehsalat Birliyində (daha sonra "Azərneftyanacaq" Neft Emalı Zavodu, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu adlandırılmışdır) kadrlar şöbəsinin rəisi, baş direktorun müavini, direktorun rejim və kadrlar üzrə müavini vəzifələrində çalışmışdır. 2005-2007-ci illərdə ARDNŞ-nin İşlər İdarəsinin rəisi olmuşdur. 2007-ci ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidentidir. 2008-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.



## XOŞBƏXT BAĞI OĞLU YUSİFZADƏ

### SOCAR-IN BİRİNCİ VİTSE-PREZİDENTİ, AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ AKADEMİKİ

Azərbaycan Milli Elmlər Akademiyasının və Türk Dünyası Araşdırılmalar Beynəlxalq Elmlər Akademiyasının akademiki, Gürcüstan Milli Elmlər Akademiyasının və Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü, Rusiya Beynəlxalq Mühəndislik Akademiyasının fəxri akademiki, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəxri professoru, geologiya-mineralogiya elmləri doktoru, professor Xoşbəxt Bağı oğlu Yusifzadə 1930-cu il yanvarın 14-də Bakının Pirşağı kəndində anadan olmuşdur. 1947-ci ildə orta məktəbi, 1952-ci ildə isə Azərbaycan Sənaye İnstitutunu (indiki Azərbaycan Dövlət Neft

və Sənaye Universiteti) "neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə keçmiş SSRİ Neft Sənayesi Nazirliyi "Dövlətxüsusineftlayihə" təşkilatının Bakı filialında başlamış, sonra "Azərdənizneft" və "Azneft" birliklərində çalışmış, 1954-cü ildə "Gürganneft" trestinin (indiki "Neft Daşları" NQÇİ) birinci mədəninin böyük geoloqu vəzifəsinə təyin edilmişdir. 1970-1992-cı illərdə "Xəzərdənizneft" İB-nin, Ümumittifaq "Xəzərdənizneftqaz" Sənaye Birliyinin, "Xəzərdənizneftqaz" İB-nin baş direktor müavini – baş geoloqu, 1992-1994-cü illərdə "Azərineft" Dövlət Konserninin birinci vitse-prezidenti, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) prezidentinin müşaviri, 1994-2004-cü illərdə SOCAR-ın geologiya, geofizika və yataqların işlənməsi üzrə vitse-prezidenti vəzifələrində çalışmışdır. 2004-cü ildən Şirkətin birinci vitse-prezidentidir.
1960-cı ildə namizədlik, 1987-ci ildə isə Moskva şəhərində doktorluq dissertasiyasını müdafiə etmiş, 2005-ci ildə professor elmi adına layiq görülmüş, 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü seçilmişdir.
X.Yusifzadə 200-dən çox elmi əsərin, o cümlədən 18 monoqrafiya və 8 ixtiranın müəllifidir.
X.Yusifzadə neft və qazçıxarmanın inkişafında xidmətlərinə görə keçmiş SSRİ-nin iki "Qırmızı Əmək Bayrağı" (1963 və 1976), "Şərəf nişanı" (1971), müstəqil Azərbaycanın "İstiqlal" (2000), "Şöhrət" (2004), "Şərəf" (2010), "1-ci dərəcəli Əmək" (2017), Vyetnam Sosialist Respublikasının "Dostluq" (2011) ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu (2015) ilə və bir sıra medallarla təltif edilmişdir. O, iki dəfə Azərbaycanın Dövlət mükafatına (1982, 1991), "Azərbaycan SSR-in Əməkdar Mühəndisi" (1964) və "Azərbaycanın Əməkdar Mühəndisi" (2005), "SSRİ neftçıxarma sənayesi əlaçısı" (1967), "SSRİ-nin Fəxri neftçisi" (1970), "Yer təkinin Fəxri kəşfiyyatçısı" (1965,1985), "Yatağı birinci kəşf edən" (1988) fəxri adlarına, Türk Dünyası Araşdırmaları Beynəlxalq Akademiyasının "Qızıl Ulduz Medalı"na, "İlin alimi" (2008) və "Türk Dünyasının Fəxri Alimi" (2011) adlarına, Avropa Təbiət Elmləri Akademiyasının "Taclı Orden"inə (2014), Rusiya Təbiət Elmləri Akademiyasının "Elm və incəsənət cəngavəri" fəxri adı və medalına, həmin Akademiyanın "Akademik Azad Mirzəcanzadə adına Gümüş Medalı"na (2015), bir sıra digər mükafatlara layiq görülmüş, neft hasilatında nanotexnologiyaların inkişafı və tətbiqinə görə 2010-cu ildə SOCAR-ın bir qrup mütəxəssisi ilə birlikdə YUNESKO-nun xüsusi medalı (2010) ilə təltif olunmuş, adı bu beynəlxalq təşkilatın ensiklopediyasına daxil edilmişdir.
2016-cı ildə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti geoloji-kəşfiyyat fakültəsinin əlaçı tələbələri üçün akademik Xoşbəxt Yusifzadə təqaüdü təsis olunmuşdur.



## EMİN MƏMMƏDOV

### SUMQAYIT TEXNOLOGİYALAR PARKININ BAŞ DİREKTORU

6 oktyabr 1973-cü ildə Bakı şəhərində anadan olub. 1997-ci ildə Azərbaycan Dövlət Neft Akademiyası "Energetika" fakültəsini, 2000-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və kredit" fakültəsini bitirib. Əmək fəaliyyətinə 1992-ci ildə başlayıb. 1997-ci ildən bank sistemində çalışır. 2009-cu ildən "Expressbank" ASC-nin İdarə Heyətinin Sədri seçilib.2017-ci ildən isə "Expressbank" ASC-nin Müşahidə Şurasının Sədri və,eyni zamanda, "Sumqayıt Texnologiyalar Parkı" MMC-nin baş direktoru təyin olunub.



## TOFİQ QƏHRƏMANOV

### SOCAR-IN STRATEJI İNKİŞAF ÜZRƏ VİTSE-PREZİDENTİ

Qəhrəmanov Tofiq Qəhrəmanov Tofiq Ridvan oğlu 1953-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1976-cı ildə M.Əzizbəyov adına Azərbaycan neft və kimya institutunu (Azərbaycan Dövlət Neft Akademiyası) mühəndis-elektrik ixtisası üzrə bitirmişdir. 1976-1983-cü illərdə Vladimir İliç adına Yeni Bakı Neftayırma Zavodunun (indiki Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu) İnformasiya-hesablama mərkəzində mühəndis vəzifəsində işləmiş, zavodun komsomol komitəsinin katibi olmuşdur. 1983-1990-cı illərdə keçmiş partiya təşkilatlarında - əvvəlcə Nizami rayon Partiya Komitəsində, sonra Bakı şəhər Partiya Komitəsində təlimatçı vəzifələrində çalışmışdır. 1990-1991-ci illərdə Vladimir İliç adına Yeni - Bakı Neftayırma Zavodunda direktor müavini, 1991-1993-cü illərdə zavodun təsis etdiyi "Azinteroil" Birgə Müəssisəsinin Baş direktoru işləmiş, 1994-1998-ci illərdə isə özəl bizneslə məşğul olmuşdur. 1998-2006-cı illərdə "Azərneftyanacaq" İB-də texniki-iqtisadi şöbənin, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda iqtisadi əməliyyatlar və investisiyalar şöbəsinin rəisi vəzifələrində çalışmışdır. 2006-2007-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Emalın strateji inkişafı şöbəsinin rəisi, 2007-2010-cu illər ərzində isə Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin rəisi olmuşdur. 2010-cu ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strateji inkişaf üzrə vitse-

prezidentidir. 2010-cu ildə Prezident İlham Əliyevin Sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.



## RƏFİQƏ HÜSEYNZADƏ

### SOCAR-IN EKOLOGİYA ÜZRƏ VİTSE-PREZİDENTİ

Hüseynzadə Rəfiqə Abdul Ağa qızı Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Neft və Kimya institutunun "Neft qaz yataqlarının axtarışı və kəşfiyyatı" fakültəsini bitirmiş, həmin fakültənin əyani aspiranturasına daxil olmuşdur. "Aşağı Küryanı neft-qaz yataqlarının geokimyəvi xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.
Azərbaycan Neft-Kimya İnstitutunda mühəndis vəzifəsində, Azərbaycan Dövlət Universitetinin "İzotop tədqiqatları" laboratoriyasında elmi işçi, baş elmi işçi və laboratoriya rəhbəri vəzifəsində çalışmışdır.
1999-cu ildən 2011-ci ilin mart ayına qədər SOCAR-ın təsis etdiyi "Azlab"MMC-də baş direktor vəzifəsində çalışmışdir.
2011-ci ilin mart ayında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Ekologiya üzrə vitse – prezidenti vəzifəsinə təyin olunmuşdur.
2001-ci ildən bu günə qədər BDU-nun "Faydalı qazıntılar" kafedrasında elmi fəaliyyətini davam etdirir.
Elmi sahədə 60-a yaxın məqaləsi var və eyni zamanda xarici və ölkədaxili konfranslarda məruzələrlə çıxış etmişdir.
1997-ci ildə Hyustonun HARC elmi-tədqiqat Mərkəzində (TEXACO şirkətinin dəvəti ilə) çalışmışdır.
Norveçdə Tronheym şəhərində "Geolab" şirkətində treyninq keçmişdir. Bundan əlavə Norveçdə Statoyl şirkətinin "Reserch Center" mərkəzində çalışmışdır.
2004-cü ildə "Bone and Robertson" (Boyük Britaniya) şirkətinin təşkil etdiyi rəhbərlik kurslarının sertifikatını almışdır.
Ailəlidir, bir qızı var.
Rus, İngilis və Türk dillərində sərbəst danışır.



## METYU BRAYZA

### "LAMOR TURKEY" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
### "LAMOR AB" ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN ÜZVÜ

Səfir Metyu Brayza neft dağılmalarına qarşı cavab tədbirləri üzrə dünyanın aparıcı "Lamor Ab" şirkətinin İdarə heyətinin üzvü və İstanbulda yerləşən "Lamor Turkey" şirkətinin Baş icraçı direktorudur. O, həmçinin diversifikasiya edilmiş enerji şirkəti və Türkiyənin ən böyük korporasiyalarından biri olan "Turcas" şirkətinin qeyri-icraçı (müstəqil) direktorudur. Bundan başqa, Metyu Brayza Böyük Britaniyada fəaliyyət göstərən "apstrim" (kəşfiyyat və hasilat) şirkətlərinin idarə heyətinin üzvü, Türkiyədə kiber-təhlükəsizlik firmasının həmtəsisçisi və Baltik dənizi regionuna ABŞ-ın maye təbii qazını ixrac edən yüksək səviyyəli investisiya qrupunun üzvüdür. Səfir Metyu Brayza Estoniyanın paytaxtı Tallinndə yerləşən Müdafiə və təhlükəsizlik məsələləri üzrə Beynəlxalq mərkəzin Beynəlxalq məşvərət şurasının üzvüdür və 2012-2015-ci illər ərzində həmin mərkəzin direktoru vəzifəsində çalışmışdır. O, həmçinin Vaşinqtonun beyin mərkəzləri olan Atlantika Şurasının qeyri-rezident baş elmi işçisi və "Jamestown" Fondunun İdarə heyətinin üzvüdür. Səfir Metyu Brayza 23 il ərzində ABŞ diplomatı vəzifəsini icra etmişdir. O, 2011-ci ilin fevralından 2012-ci ilin yanvarına qədər ABŞ-ın Azərbaycandakı səfiri təyin edilmişdir. 2005-2009-cu illər ərzində o, Avrasiyanın enerji təhlükəsizliyi, eləcə də Cənubi Qafqaz, Türkiyə, Yunanıstan və Kipr regionu üzrə Avropa və Avrasiya məsələləri üzrə dövlət katibinin müavini vəzifəsində çalışmışdır. Eyni zamanda, Metyu Brayza Dağlıq Qarabağ münaqişəsinin sülhlə həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri və Kipr məsələsi, eləcə də Gürcüstandakı Abxaziya və Cənubi Osetiya separatçı münaqişələrinin sülh yolu ilə nizamlanmasına nail olmaq üçün ABŞ-ın vasitəçisi vəzifəsini icra etmişdir. 2001-2005-ci illərdə səfir Metyu Brayza Ağ Evdə Milli Təhlükəsizlik Şurasının islam pərdəsi altında ekstremizm ilə yanaşı, yuxarıda qeyd olunan sahələri də əhatə edən Avropa və Avrasiya məsələləri üzrə direktor vəzifəsində çalışmışdır. Bundan əvvəl isə o, ABŞ-ın Dövlət Departamentində aşağıdakı vəzifələri icra etmişdir: Xəzər enerji mənbələri üzrə Dövlət katibinin və Prezidentin xüsusi müşaviri; Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda İqtisadi islahatlar üzrə müşavir; Rusiya (1995-97) və Polşadakı (1989-91) ABŞ nümayəndəliklərində diplomat.



## DAVİD MƏMMƏDOV

### SOCAR-IN EMAL ÜZRƏ VİTSE-PREZİDENTİ

Məmmədov David Niyazi oğlu 1955-ci ildə Kürdəmir şəhərində anadan olmuşdur.1980-ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu ( Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) "Neftin və qazın kimya texnologiyası" ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə 1976-ci ildə Vladimir İliç adına Yeni Bakı neft emalı zavodunda başlamışdır.1994-cü ilədək Yeni Bakı neft emalı zavodunun operatoru, qurğu rəisi, sex rəisinin müavini, sex rəisi, şöbə rəisi vəzifələrində işləmişdir.1994-2005-ci illərdə "Azərneftyanacaq" İB-nin baş direktorunun birinci müavini – baş mühəndis, Heydər Əliyev adına Bakı neft emalı zavodunun baş mühəndisi olmuşdur.2005-ci ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin emal üzrə vitse-prezidentidir. 2005-ci ildə "Azərbaycan Respublikasının əməkdar mühəndisi" fəxri adına layiq görülmüş,2010-cu ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.



## XƏYAL CƏFƏROV

### KARBAMİD ZAVODUNUN DİREKTORU

Xəyal Vilayət oğlu Cəfərov 1974-cü ildə Bakı şəhərində anadan olmuşdur. Neft-qaz sahəsində fəaliyyətinə 1995-ci ildə ARDNŞ-nin Xarici Sərmayələr İdarəsində İqtisadiyyat üzrə aparıcı mütəxəssis kimi başlamışdı. 1998-ci ildə ARDNŞ-nin Xarici Sərmayələr İdarəsində Layihələrin Maliyyələşdirilməsi şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdir.
2000-ci ildə BP Exploration Caspian Sea Ltd şirkətində Kommersiya məsələləri üzrə Analitik vəzifəsində çalışmağa başlamışdır. 2002-ci ildə Xəyal Cəfərov çalışmaq üçün Rusiya Federasiyasının Moskva şəhərindən dəvət alıb və 2006-cı ilin sonlarınadək orada əvvəlcə Eni Energy Rusiya şirkətində Kommersiya və Biznes inkişafı üzrə Baş məsləhətçi, daha sonra isə Eni Management International Services şirkətinin Rusiya Federasiyası üzrə filialının Baş direktoru vəzifəsində çalışmışdır.
Xəyal Cəfərov 2006-cı ilin sonlarında Bakıya qayıtmış və 2011-ci ilin avqust ayına qədər BP Exploration Caspian Sea Ltd. şirkətində karyerasını davam etdirərək ARDNŞ-lə əlaqələr üzrə Məsləhətçi, İxrac əməliyyatları üzrə Maliyyə Direktoru, daha sonra isə Sanqaçal Neft Terminalında Maliyyə Direktoru vəzifəsində çalışmışdır.
2011-ci ilin avqust ayında o, SOCAR-ın Karbamid zavodunun direktoru vəzifəsinə təyin edilmişdir.
Xəyal Cəfərov Bakı Dövlət Universitetindən İqtisadiyyat üzrə Bakalavr dərəcəsinə və John Hopkins Universitetindən Beynəlxalq İqtisadiyyat üzrə Magistratura dərəcəsinə malikdir.



## BABAYEV MUXTAR

### AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ

Babayev Muxtar Bahadur oğlu 16 oktyabr 1967-ci il tarixində Bakı şəhərində anadan olmuşdur.
1984-cü ildə Bakı şəhəri 6 №-li orta məktəbi bitirmişdir və həmin il Moskva Dövlət Universitetinə daxil olmuşdur.
1991-ci ildə Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin politologiya ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir.
1991-1992-ci illərdə Azərbaycan Respublikası Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsində çalışmışdır.
1992-1993-cü illərdə Azərbaycan Respublikası Xarici İqtisadi Əlaqələr Nazirliyində çalışmışdır.
1994-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin xarici iqtisadi əlaqələr ixtisasını bitirmişdir.
1994-2003-cü illərdə Socar-ın Xarici İqtisadi Əlaqələr İdarəsində çalışmışdır.
1999-cu ildə Ümumrusiya Xarici Ticarət Akademiyasının dünya iqtisadiyyatı ixtisasını bitirmişdir.
2007-ci ilin dekabr ayında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə SOCAR-IN Ekologiya üzrə vitse-prezidenti vəzifəsinə təyin olunmuşdur.
2010-cu ilin aprel ayından SOCAR-IN "Azərikimya" İstehsalat Birliyinin baş direktoru, 2010-cu ilin oktyabr ayından Müşahidə Şurasının Sədri vəzifəsinə təyin olunmuşdur.
2010-cu ilin noyabrından Milli Məclisin deputatıdır.
Azərbaycan Respublikası Prezidentinin 23 aprel 2018-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Naziri vəzifəsinə təyin olunmuşdur.
Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, iki uşağı var.



## MELİH HAN BİLGİN

### TÜRKİYE PETROLLERI ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ DİREKTORU

İTU Aviasiya Mühəndisliyi  Bölümünü bitirdikdən sonra, uzun illər özəl sektorda rəhbər vəzifələrdə çalışmışdır ve son olaraq CNK Havacılık şirkətində Baş Direktor vəzifəsində çalışmışdır.
21.09.2017 tarixində Türkiye Petrolleri şirkətinin İdarə Heyətinin Sədri və Baş Direktor vəzifəsinə təyin edillmışdir.
Yüksək səviyyədə İngiliscə bilir, evlidir və iki uşaq atasıdır.



## BERNARD KLEMENT

### TOTAL ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT BÖLMƏSİNİN AVROPA VƏ XƏZƏR REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ

Bernard Klement (Bernard  CLEMENT),  59 yaş, Parisin Politexnik  İnstitutunu və Fransa Neft İnstitutunu (“Ecole Nationale Supérieure du Pétrole et des Moteurs”) geofizika ixtisas üzrə bitirib. O, 1983-cü ildə “Total” şirkətlər qrupunun Kəşfiyyat bölməsindəki Tədqiqat və İnkişaf departamentində layihə rəhbəri kimi fəaliyyətə başlayıb. O, daha sonra şirkətlər qrupunun Strateji planlaşdırma və Təbii qaz bölmələrində (ardıcıl vəzifələrdə) işləyərək karbohidrogenlərin  daşınması və saxlanması  işinin təkmilləşdirilməsinə  görə cavabdeh olmuşdur. O, 1996-cı ildə şirkətin Afrika filialında Konqo üzrə Vitse-prezident vəzifəsinə keçirilmişdir. B. Klement 2000-ci ildə “Total E&P Thailand” şirkətinin prezidenti və Baş direktoru təyin edilmişdir. 2003-cü ildə isə Orta Şərq regionu (Yəmən, Suriya və Oman) üzrə cavabdeh Vitse-prezident olmuşdur. O,
2010-cu ildə Qaz və Enerji bölməsində qaz infrastrukturları, texnologiya, eləcə də Tədqiqat və İnkişafa cavabdeh olan Birinci vitse-prezident təyin edilmişdir. B. Klement 2012-ci ildə “Total” şirkətinin Yeni Enerji bölməsinin biznes və əməliyyatlar üzrə Birinci vitse-prezidenti olmuşdur. O, 2011-2016-cı illərdə “NASDAQ” fond birjasında qeydiyyatdan  keçmiş, 60%-ni “Total” şirkətinə məxsus olan “SunPower ” şirkətinin İdarə heyətinin üzvü olmuşdur. O, 2017-ci ilin yanvar ayında “Total” şirkətinin Kəşfiyyat və Hasilat bölməsinin Avropa və Xəzər regionları üzrə Vitse-prezidenti təyin edilmişdir.



## ƏFQAN İSAYEV

### “CƏNUB QAZ DƏHLİZİ” QSC-NİN BAŞ DİREKTORU

Əfqan Elçin oğlu İsayev 3 noyabr 1974-cü il tarixində Bakı şəhərində anadan olmuşdur. 1996-cı ildə ABŞ-ın Nyu Cersi ştatında yerləşən Rutgers Universitetini Maliyyə üzrə bakalavr dərəcəsi, İqtisadiyyat üzrə bakalavr dərəcəsi və Avropa tədqiqatları üzrə əlavə dərəcə ilə bitirmişdir. 1998-ci ildə həmin universitetin Rutgers Ali Menecment Məktəbini Maliyyə və İdarəetmə ilə bağlı İnformasiya Sistemləri üzrə magistr dərəcəsi ilə bitirmişdir. 1998-2000-ci illərdə Əfqan İsayev ABŞ-ın Nyu York ştatında “American Express International Bank”da Mərkəzi və Şərqi Avropa, habelə MDB bazarları üzrə regional maliyyə təhlilçisi vəzifəsində çalışmışdır. 2001-2002-ci illərdə “American Express” şirkətində Strateji Alyanslar Qrupunda risk-menecer vəzifəsində işləmişdir. 2002-2003-cü illərdə “American Express” şirkətində İnvestisiya Portfelinin Təhlil Qrupunda menecer vəzifəsində işləmişdir. 2004-2009-cu illərdə “Bank of Baku” ASC-də İdarə Heyətinin sədr müavini, 2009-2012-ci illərdə isə Azərbaycan İnvestisiya Şirkətinin İcraçı Direktoru vəzifəsini tutmuşdur. 2012-2013-cü illərdə Əfqan İsayev “SOCAR Georgia Investments LLC”şirkətində Baş Direktor vəzifəsində çalışmışdır. 2013-cü ildən etibarən o, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Prezidentinin müşaviri, habelə 2014-cü il tarixindən indiyədək “Cənub Qaz Dəhlizi” QSC-nin Baş Direktoru vəzifəsini icra edir.



## CON M. ROBERTS

### "METHINKS LTD" ŞIRKƏTİNDƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ ÜZRƏ MÜTƏXƏSSİS

Con M. Roberts enerji, iqtisadi inkişaf və siyasət sahəsində qarşılıqlı münasibətlər üzrə ixtisaslaşmış "Methinks Ltd" məsləhət şirkətinin baş partnyorudur. O, həmçinin Vaşinqtonda Atlantik Şurasının Qlobal Enerji Mərkəzinin Böyük elmi işçisi və BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) təbii qaz sahəsində ekspertlər qrupunun üzvüdür.
Hazırda Con M. Roberts Avropa enerji təhlükəsizliyi məsələlərini, o cümlədən təbii qazın bütün dünyada bərpa olunan enerji mənbələri üzrə inqilabi dəyişikliklərə töhfəsi, Avropanın enerji təhlükəsizliyində Türkiyənin rolu, Avropaya idxal olunan Rusiya qazı, Avropada yeni təchizat kəmərləri və əlaqələndirici kəmərlərin tikintisi, eləcə də Şərqi Aralıq dənizi regionunda yeni qaz mənbələrinin enerji təhlükəsizliyinə təsiri məsələlərini araşdırır.
Roberts enerji sahəsində Yaxın Şərq, Rusiya, Xəzər, Türkiyə və kürd enerji təhlükəsizliyi məsələləri ilə bağlı Birləşmiş Krallığın parlament komitələrində məruzə ilə çıxış etmiş mötəbər analitikdir. O, bir sıra mövzularda, o cümlədən Arktik dənizdə neft-qaz hasilatı, Yaxın Şərq regionunda sosial-siyasi iğtişaşların təsiri və Xəzər dənizində sərhəd mübahisələri mövzusunda mühazirələr oxuyub. Onun kompleks tədqiqatlara son töhfələri arasında Avropanın Cənub Enerji Dəhlizi boyu regional enerji əməkdaşlığı, redaktorları Meliha B. Altunışık və Oktay F. Tanrısever olan "Cənubi Qafqaz: Təhlükəsizlik, Enerji və Avropalaşma" adlı tədqiqatın 12-ci fəsli (yanvar 2018, "Routledge" nəşriyyatı), "Cənub Qaz Dəhlizi", redaktorları Manfred Hafner və Simon Taqliapiyetra (Simone Tagliapietra) və Palqreyv Makmilan (Palgrave Macmillan) olan "Avropanın Qaz Bazarları: Problemlər və İmkanlar" adlı tədqiqatın 14-cü fəsli (noyabr 2017) və İranın təbii qaz ixracı perspektivləri və enerji təhlükəsizliyi (təqdimat: FLAME, Amsterdam, may 2017) elmi işləri yer alır.
C. Roberts yaxın vaxtlarda Atlantik Şurası üçün "İraqın Kürdüstan regionunda neft-qaz" mövzusunda, Avropada birləşdirici qaz kəmərləri və Rusiyanın "Türk axını" boru kəmərinin inkişafı və onun Cənub Qaz Dəhlizinin inkişafına təsiri haqqında tədqiqatlarını tamamlayıb.



## MİXAİL NOVİKOV

### "EAGE" ŞİRKƏTİNİN BAŞ DİREKTORU

Mixail Novikov Moskva Xarici Dillər İnstitutunun məzunudur və ixtisası dilçilik, etnologiya və sosiologiyadır. O, SSRİ Elmlər Akademiyasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. M. Novikov bədii və elmi-texniki ədəbiyyat sahəsində tərcüməçidir və bir neçə dil bilir. O, münaqişələrin qarşısının alınması və tədris sahəsində, o cümlədən Amerika universitetlərində, eləcə də ABŞ və Rusiyanın digər universitetlərində pedaqoji sahədə böyük akademik tədqiqat və praktiki iş təcrübəsinə malikdir. M. Novikov sərgi, konfrans, müsabiqə və kütləvi mətbuat festivallarının təşkilinə cəlb olunub. O, informatika sahəsi üzrə jurnalların naşiri və baş redaktoru olub və biznesin inkişafı departamentlərinə və proqram təminatları, o cümlədən təhsil sahəsi üzrə proqram təminatları hazırlama şirkətlərinə rəhbərlik edib. O, həmçinin peşəkar naşirlər, proqram təminatları və informasiya texnologiyaları layihələndirənlər assosiasiyalarında fəal iştirak edib. Mixail Novikov 2011-ci ildən etibarən "EAGE" şirkətinin Rusiya və MDB ölkələri üzrə regional ofisinə rəhbərlik edir.



## BRƏNT HASEBE

### BP AZƏRBAYCAN ŞİRKƏTİNİN YATAQLARIN İŞLƏNMƏSİ ÜZRƏ VİTSE-PREZİDENTİ

Cənab Brənt Hasebe BP Azərbaycan şirkətində yataqların işlənməsi üzrə vitse-prezidentdir. O, BP şirkətindəki fəaliyyətinə 1997-ci ildə başlayıb və Azərbaycana yataqların işlənməsi üzrə vitse-prezident vəzifəsinə təyin olunmazdan əvvəl Alyaska, Birləşmiş Krallıq, Azərbaycan və Hyustonda əməliyyat, mühəndis-layihələndirmə, kommersiya, texniki və biznes sahələrində bir sıra rəhbər vəzifələrdə işləyib.
Cənab Hasebe Rays Universitetini kimya texnologiyası üzrə bakalavr diplomu ilə bitirib və ikinci ixtisas olaraq mühəndis-ekoloqdur.
Hazırkı vəzifəsində cənab Hasebe bütün yataqların idarə olunmasının və işlənməsinin planlaşdırılmasına cavabdehdir.



## DUQLAS R. KORT

### YAXIN ŞƏRQ VƏ XƏZƏR REGİONUNDA DƏNİZ ƏMƏLİYYATLARI ÜZRƏ DİREKTOR "MCDERMOTT, INC."

Duqlas R. Kort "McDermott" şirkətinin Yaxın Şərq və Xəzər regionunda Dəniz əməliyyatları üzrə direktorudur. O, 20 illik iş təcrübəsinə malikdir və bu müddətin 16 ilini "McDermott" şirkəti üçün Amerika Birləşmiş Ştatları, Qərbi Afrika, Cənubi Amerika, Azərbaycan və Yaxın Şərq regionlarında neft-qaz sənayesində kəşfiyyat və hasilat, layihələrin idarə edilməsi, dərin sulu hövzələr və dəniz yataqlarının işlənməsi üzrə kommersiya və ümumi idarəetmə vəzifələrində çalışıb. O, hazırkı vəzifəsi çərçivəsində Yaxın Şərq, Şimali Afrika və Xəzər regionunda bütün dəniz əməliyyatlarında təhlükəsizlik və səmərəlilik məsələlərinə görə məsul şəxsdir.



## ERNESTO RİOS PATRON

### MEKSİKA NEFT İNSTİTUTUNUN (İMP) BAŞ DİREKTORU

Doğulduğu yer və tarix: Mexiko şəhəri. 14 noyabr 1968-ci il. Yaşı: 49.
Ali təhsil
• 1997-2000-ci illərdə ABŞ-ın İllinoys ştatının iki qardaşlaşmış şəhərində - Urbana və Şampeyn şəhərlərində yerləşən Urbana-Şampeyn İllinoys Universitetində kimya mühəndisliyi üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb;
• 1995-1996-ci illərdə Urbana-Şampeyn İllinoys Universitetində kimya mühəndisliyi üzrə magistr elmi dərəcəsi alıb;
• 1988-1992-ci illərdə Mexiko Milli Muxtar Universitetində kimya mühəndisliyi ixtisası üzrə bakalavr elmi dərəcəsi alıb.
İş təcrübəsi
"PEMEX" şirkəti
• "PEMEX" şirkətində korporativ əməliyyatlar üzrə layihələrin hazırlanması üzrə direktor köməkçisi, 2010-cu ilin avqust ayından 27 yanvar 2015-ci il tarixinədək;
• Korporativ əməliyyatlar üzrə direktorun inkişaf məsələləri üzrə köməkçisi, 2010-cu ilin avqust ayından 27 yanvar 2015-ci il tarixinədək;
• Korporativ mühəndislik və layihələrin hazırlanması məsul işçisi, 2010-cu ilin fevral ayından oktyabr ayına kimi.
"İMP" şirkəti
• Planlaşdırma və institusional inkişaf üzrə korporativ direktor, avqust 2005 – yanvar 2010;
• Operativ layihə koordinatoru, noyabr 2004 - iyul 2005;
• Strateji planlaşdırma üzrə menecer, may 2002 – oktyabr 2004.
Fərdi (müstəqil) iş təcrübəsi
"McKinsey and Company" şirkətinin "Associado" filialının məsləhətçisi. Meksika, fevral 2000 - aprel 2002.
Mühəndis-texnoloq. "Bufete Industrial" şirkətin Mühəndislik tərtibat və layihələri departamenti.



## ELDAR ŞAHBAZOV

### NEFTQAZELMİTƏDQİQATLAYİHƏ İNSTİTUTUNUN NANOTEXNOLOGİYALAR LABORATORİYASININ RƏHBƏRİ

Təhsil: Azərbaycan Neft və Kimya İnstitutu (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti), neft mexaniki fakultəsi
Elmi dərəcə: Texnika elmləri doktoru, Professor
Pedaqoji fəaliyyəti: Azərbaycan Memarlıq və İnşaat Universitetində "İnformasiya texnologiyaları və sistemləri" kafedrasının müdiri
Təltif və mükafatlar: 2010-ci ildə UNESCO mükafatı laureatı; Azərbaycan Respublikasının Tərəqqi medalı ilə təltif olunub, Əməkdar elm xadimi.



## LUKA VİQNATİ

### "ENI" ŞİRKƏTİNİN MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ İCRAÇI VİTSE-PREZİDENTİ

1963-cü ildə Maserata (İtaliya) şəhərində dünyaya gəlib.
Təhsili: Bolonya Universitetində mədən mühəndisliyi ixtisasına yiyələnib.
2016-cı ilin iyun ayından etibarən "Eni" şirkətinin İcraçı Vitse-prezidentidir.
1990-cı ildə "Eni" şirkətlər qrupuna qoşulub və öz karyerasına "Agip SPA" şirkətində neft-qaz yataqlarının işlənməsi üzrə mühəndis kimi başlayıb. O, İtaliya və xarici ölkələrdə bir sıra vəzifələrə təyinat aldıqdan sonra məhsuldar lay, neft və hasilat departamentlərində bir çox texniki vəzifələr tutub.
O, rəhbər vəzifəyə 1998-ci ildə Tunisdə "SITEP JV" şirkətinin İnkişaf üzrə Baş direktoru kimi başlayıb və 2008-ci ildə "Eni" şirkətinə qayıdana kimi, İtaliyada orta ölçülü istehsal şirkətinin Baş direktoru olub.
2009-cu ildə L. Viqnati "Eni UK" şirkətinin texniki direktoru təyin edilib və 2010-cu ildə Türkmənistanda "Burren Resources Petroleum Limited" şirkətinin idarəedici direktoru olub. O, 2011-ci ildə "Agiba" şirkətinin Baş meneceri və idarəedici direktoru kimi Misirdə çalışıb.
2012-ci ildən etibarən L. Viqnati Qazaxıstanda "Karachaganak Petroleum Operating" şirkətinin əməliyyatlar üzrə direktoru və Baş direktor müavini (2012-14), eləcə də "Agip Karachaganak" şirkətinin idarəedici direktoru və rezident-menecer (2015-2016) vəzifələrində çalışıb.



## TOĞRUL BAĞIROV

### BAKI NOBEL İRSİ FONDUNUN SƏDRİ, MİLLİ (RUS) NOBEL İRSİ FONDUNUN PREZİDENTİ, QLOBAL ENERJİ ÜZRƏ BMT-NİN EKSPERTİ

Dr. Bağırov Toğrul A. - energetika təhlükəsizliyi sahəsində aparıcı ekspert, siyasi elmlər üzrə doktor Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin Beynəlxalq Enerji Siyasəti və Diplomatiya İnstitutunun professoru, Rusiya Təbiət Elmləri Akademiyasının alternativ üzvü, Beynəlxalq Neft Klubunun prezidenti, Bakı Nobel İrsi Fondunun sədri, Milli (Rus) Nobel İrsi Fondunun prezidenti, qlobal enerji üzrə BMT-nin yüksək səviyyəli ekspertidir.
2010- İsveç Krallığından Royal Polar Star ordeni almışdır.
2012-ci ildə Fransa Respublikasının "Legion d'Honneur de France" adlı orderini alıb.



## ORXAN CƏFƏROV

### AZƏRİKİMYA İB-NİN İCRAÇI DİREKTORU

Cənab Cəfərov SOCAR-ın Azərikimya İB-nin İcraçı direktorunun Sərmayə və İnkişaf üzrə müavinidir. SOCAR Azərikimyadan İB-dən əvvəl c-b Cəfərov 1 il SOCAR KBR MMC-nin Baş direktorunun müavini və 5 il SOCAR-ın Neft-qaz emalı Neft-kimya kompleksinin Yenidənqurma və Modernizasiya departamentinin Layihə işlərinin təşkili şöbəsinin rəis müavini və rəisi vəzifəsində çalışıb. SOCAR-a gəldikdən öncə c-b Cəfərov 2004-2011-ci illər ərzində McDermott Caspian Contractors Inc., McDermott International Inc., Codest LLC və Aztexnika MMC-də işləyib.
C-b Cəfərov 1982-ci ildə Bakıda anadan olub. O, Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyatın tənzimlənməsi sahəsi üzrə bakalavr, Qiymət və qiymətin əmələ gəlməsi sahəsi üzrə maqistr və ABŞ-ın Layihə İdarəetmə İnstitutunun (PMİ) Layihə idarə etməsi üzrə professional (PMP) diplomlarına malikdir. Evlidir, 2 övladı var.

ТОЛЬКО
САМОЕ ВАЖНОЕ




+38 (096) 408-59-73
WWW.GAS-OIL.COM.UA



# *Turning Moments into Memories*

About the hotel
This luxury 5-star hotel in the Flame Towers architectural complex-one of the most grandiose structures in the city of Baku, which has become the symbol of Azerbaijan. The complex is located in a prestigious area of the town and differs with its charming panorama view of the Old city and Baku bay.

**Accommodation**
There are 299 guest rooms and 19 luxury serviced apartments in the hotel. Each guest room has spa-like marble bathrooms, exclusive bed and bath accessories/toiletries from the brand Le Labo Rose 31, high-speed Internet, LCD TVs, coffee machines and much more.

Restaurants and bars
Le Bistro with exquisite merge of French, Italian and local cuisine, Nur Lounge with a wide range of cocktails and hookahs and The Jazz Club with an admirable interior, live music, and panoramic view.

**Facilities**
Two floors - 3600 sqm spa center ESPA-biggest one in Azerbaijan (treatment rooms and VIP rooms, indoor and outdoor pool with sea view, hammam, GYM, yoga, and meditation studio, health cafe). 11 meeting rooms and 2 ballrooms for social events, valet parking 24-hour concierge and business center, laundry, babysitter services, car rental and hundreds of other services to meet any guest's needs.

Fairmont Gold Lounge
Located on the 19th floor, Fairmont Gold Lounge offers guests exclusive services and privileges, including deluxe buffet breakfast, evening snacks and drinks, detached Check-in/out zone and separate personnel, welcome cocktail, snacks, and fruit in guest rooms on arrival.

Fairmont
BAKU
FLAME TOWERS







Flame Towers, 1A, Mehdi Huseyn, Baku,Azerbaijan, AZ1006 | Tel: (+ 994) 12 565 48 48 | baku@fairmont.com | www.fairmont.com

Caspian Oil&Gas
Azerbaijan
Conference

# İŞTİRAKÇILARIN TƏQDİM ETDİKLƏRİ MƏLUMAT

25 il
1994-2018

## 1 NEWS İNFORMASİYA AGENTLİYİ MMC

B.Səfəroğlu küç., 133, Sat Plaza, 12-ci mərt.
Bakı, AZ1009, Azərbaycan
Tel.: +994 12 4970073
Faks: +994 12 5963026
E-mail: office@1news.az
www.1news.az

2007-ci ildə qurulan ' The First News" İnformasiya Agentliyi və onun veb səhifəsi www.1news.az indi Azərbaycanda və Cənubi Qafqaz regionunda ən məşhur xəbər mənbələrindən biridir.
Bizim gündəlik unikal istifadəçi auditoriyamız 10.000 nəfər civarındadı (Google Analytics görə) və bizim sosial şəbəkələrdəki Aktiv istifadəçilərin (yəni Facebook və Twitter) sayı 25,000 nəfər civarında (www.fb.com/1news.az və @ www_1news_az) təşkil edir.
Biz ən mühüm yerli və qlobal məsələlər üzrə faktiki və operativ məlumat vermək üçün bayram günləri də daxil olmaqla 24 saat fəaliyyət göstəririk.
Baş redaktor - Rahman Hacıyev - Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsinin Magistr dərəcəsi sahibidir və ictimai əlaqələr, o cümlədən, iqtisadiyyatın müxtəlif sahələrində böyük iş təcrübəsinə malikdir.
Biz rəsmi informasiya agentliyi kimi Ədliyyə Nazirliyi və Vergilər Nazirliyində qeydiyyatdan keçmişik (sənədlərin surətləri yalniz icazə ilə yayımlana bilər).

## ABS

Baku Port
Nizami küç. 69 "ISR Plaza" 9-cu mərt.
Bakı, AZ1005, Azərbaycan
Tel.: +99412 493 36 01
Faks: +99412 493 35 97
Email: ABSBaku@eagle.org
www.eagle.org

Dənizçilik və "ofşor" sənayeləri üçün təsnifat və texniki konsultasiya xidmətlərinin aparıcı qlobal təchizatçısı kimi, "ABS" şirkəti layihələndirmə, tikinti və istismar sahəsində texniki təhlükəsizlik və mükəmməllik standartlarını (etalon olaraq) müəyyən etmək əzmindədir. Əsas diqqətini qabaqcıl texnologiyalar və rəqəmsal həll variantlarının təhlükəsiz və praktiki tətbiqinə yönəltmiş "ABS" şirkəti dənizdə yerləşən obyektlər üzrə dəqiq və münasib qiymətli uyğunluq prinsiplərinin hazırlanması ilə məşğuldur.

## ACE GROUP CONSULTANTS MMC

Xətai rayonu, Nobel pr., 15
Azure Biznes Mərkəzi, 7-ci mərtəbə,
Bakı, AZ1025, Azərbaycan
Tel.: +994 12 4886832
Faks: +994 12 4886791
E-mail: office@aceconsultants.az
www.aceconsultants.az

ACE Group Consultants neft və qaz sektoru şirkətlərini Biznes Konsaltinq, Əmək münasibətləri/HR Autsorsinq və Layihə İdarəolunması sahəsində yüksək keyfiyyətli xidmətlərlə təmin edən konsaltinq şirkətidir. Xidmətlər beynəlxalq standartlara və yerli qanunvericiliyə uyğun olaraq göstərilir.

## APA HOLDING

Nəcəfqulu Rəfiyev küç., məhəllə, 11/45
Bakı, AZ1025, Azərbaycan
Tel.: +994 12 4883542/43/44
Mob.: +994 50 3975047
Faks: +994 12 4883579
E-mail: info@apaholding.az
nazilya.u@mail.ru
www.apaholding.az

"APA Holding" MMC bir neçə media strukturu və struktur törəmələrinin birləşməsindən təşkil olunmuş qurumdur.
Holdinqə "Azəri-Press" İnformasiya Agentliyi (APA) MMC, "Lent.az" İnformasiya Agentliyi MMC, "Vesti.az" İnformasiya Agentliyi MMC, "APASport.az" İnformasiya Agentliyi MMC və "APA SERVİS" MMC-lər daxildir. "APA Servis" MMC-nin tərkibində APA TV internet televiziyası, "Lent.az" İnformasiya Agentliyi MMC-nin tərkibində "Kulis.az" və "Ailəm.az" törəmə strukturları fəaliyyət göstərir.
Holdinqin əsas fəaliyyət istiqamətləri informasiya, reklam, rabitə, internet və provayder xidmətlərinin göstərilməsidir.
Qurum Azərbaycanda ilk xəbər şirkəti kimi öz brendlərini və əmtəə nişanlarını Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində sertifikatlaşdırıb və müvafiq patentlər alıb.
Şirkət "Global Certification Limited"
agentliyinin keyfiyyət və idarəetmə sertifikatına sahibdir.

## ATLAS COPCO

Tel.: +90 216 5810581
Faks: +90 216 5810582
E-mail: altan.kacar@tr.atlascopco.com
www.atlascopco.com

Atlas Copco davamlı məhsuldarlığı təmin edən məhsul və xidmətləri üzrə dünya lideri mövqeyinə sahib olan sənaye qrupudur. Müştərilərimiz kompressor texnikası, sənaye texnikası, qaz və neft kompressorları və hava quruducuları, hava və qazların təmizləyici avadanlıqları və hava ilə idarəetmə sistemlərini neft-qaz sənayesi və istehsalat sahələrinə təqdim edir. Biz 180-dən artıq ölkədə güclü bir bazara sahibik. Dünyanın 90-dan çox ölkəsində müştərilərə, tam məxsusi müştəri xidmətləri mərkəzləri tərəfindən xidmət göstərilir. Atlas Copco satış və satış sonrası xidmətlərini təqdim etmək üçün Azərbaycanda da fəaliyyət göstərməkdədir.

# GLOBAL OIL & GAS EXPLORATION AND PRODUCTION COMPANY

**INPEX CORPORATION is the largest Japanese oil & gas exploration and production company. We are committed to continue contributing proactively to the ACG and BTC projects and help further strengthen relations between Azerbaijan and Japan.**




(Cover photo): Ichthys LNG Project Central Processing Facility (CPF)
Courtesy Capt. Serge Prakhov

# Some people are more comfortable with old problems than new solutions.

Our 15,000 experts aren't satisfied with being comfortable. We are combining almost 100 years' experience with innovative thinking and cutting-edge technologies to challenge 'the way it's always been done'.

**We are** adapting & evolving with our clients.



Engineering | Procurement | Construction | Installation

## We are McDERMOTT

www.mcdermott.com

Find us on

## AZƏRBAYCAN NEFT TƏSƏRRÜFATI AYLIQ ELMİ-TEXNİKİ VƏ İSTEHSALAT JURNALI

H.Zərdabi küç., 88a
Bakı, AZ1012, Azərbaycan
Tel.: +994 12 5211548
Faks: +994 12 5211548
E-mail: office.aoi@socar.az
www.ant.socar.az

1898-ci ildə Neft Sənayeçiləri Qurultaylarının daimi rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayları Şurası özünün nəşrini – «Neftyanoe Delo» qəzet-jurnalını təsis etdi. Mətbu orqanın ilk sayı rus dilində 1899-cu ilin 10 yanvarında işıq üzü gördü. Bununla jurnal nəinki Bakıda, bütövlükdə dünyada neft sənayesinin nailiyyətləri və problemlərinin hərtərəfli işıqlandırılmasında əvəzsiz rol oynayan ilk sahə mətbu orqanlarından birinə çevrildi. Junnal Azərbaycanda Sovet hökuməti qurulana kimi ayda 2 dəfə dərc olunurdu.
1920-ci ilin may ayında Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sərəncamı ilə «Neftyanoe Delo» jurnalının adı dəyişdirilərək «Azərbaycan neft təsərrüfatı» (ANT) adı altında işıq üzü görmüşdür.
Bu gün jurnalda 3 dildə materiallar dərc olunur: azərbaycan, rus və ingilis.
Sahə üzrə ən qocaman mətbu orqan olan bu jurnal böyük nüfuz qazanaraq, nəinki respublikamızda, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda aktual, yüksək peşəkarlıqlı elmi-texniki və istehsalat informasiya mənbəyi kimi tanınmışdır. Fəaliyyətinin bütün dövrü ərzində jurnal öz səhifələrində olduqca sanballı materiallar toplamış, özünəməxsus kiçik bir ensiklopediya rolunu oynamışdır.
Neft sənayesi sahəsində texniki tərəqqinin çoxsaylı başlıca prioritetlərini əks etdirən materialların dərc olunması məhz ANT jurnalına məxsusdur.
